*Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies,*
*Cilt: VII, Sayı 1, Sayfa: 137-141, İZMİR 2007.*

# İSLAMIN ELM VƏ MƏDƏNIYYƏT DINI KIMI ŞƏRHINDƏ ƏHMƏD AĞAOĞLUNUN MÖVQEYI

## Ahmed Agayev's Position in the Explanation of Islam Religion of Science and Culture

***Mübariz SÜLEYMANLI*** [*]

**Özet**

Makalede Ahmet Ağaoğlunun İsalm dinini elm və mədəniyyət dini kimi şərh etməsinden bəhs edilir. XX asrın ilk illerinde yazılmış ve eksəriyəti polemik üslubda olan bu əsərlərdə Qərbin və Rusiyanın antiislam meyllərinə qarşı müellifin mövqeyi göstərilir. A.Ağaoğlunun, Məhəmməd dini və şəriətini, islamın əsaslarını müdafiə etməsi ilə bağlı konkret faktlar gətirilir.

***Anahtar Kelimeler:*** Ahmed Ağayev, Ahmed Ağayev'in Eserleri, İslam ve Medeniyet

**Abstract**

In clause the author, on the basis of the analysis of jobs Ahmed Agayev (1869 - 1939), published in the beginning XX of century, tries to give a panorama of sights of the scientist on Islam, his place in cultural progress.

***Key Words:*** Ahmed Agayev, Ahmed Agayev's Works, İslam and Civilization

Çoxyönlü elmi-mədəni fəaliyyəti ilə Azərbaycan mədəniyyəti tarixinə zəngin irs bəxş etmiş Əhməd bəy Ağaoğlu, həm də islam dininin müxtəlif yönlərdən şərhinə həsr edilmiş və dövrü üçün əhəmiyyətli olduğu kimi günümüzdə də aktuallıq kəsb edən bir sıra əsərlər müəllifidir. Onun Fransa, Azərbaycan və Türkiyə mətbuatında çap olunmuş və islamın elm, maarif, mədəniyyət dini olmasını açıqlayan yüzlərlə məqalələrindən başqa, islamda qadın hüquq və azadlıqlarını, elmi-mədəni tərəqqiyə təkan verən amilləri şərh və təbliğ edən monoqrafik əsərləri də vardır. Mövzumuzun genişliyini nəzərə alaraq, biz bu yazımızda yalnız bəzilərinin kitab halında (1; 2), bəzilərinin elmi toplularda məruzə mətni şəklində (4) çap olunmuş əsərlərindən və bir neçə məqaləsindən (5; 6; 7) bəhs edəcəyik.

XX əsri islam dini haqqında yeni, orijinal fikirlərlə qarşılayan, onun cəmiyyətin inkişafını şərtləndirən, humanizm və tolerantlıq təlqin edən müqəddəs ruhi-mənəvi dəyərlər sistemi olduğunu elmi dəlællərlə, tarixi-müqayisəli üsullarla araşdıran Ə.Ağaoğlu 1892-ci ildə "Şiə dinində məzdəki inancları", 1900-cu ildə "İslama görə və islamlıqda qadın", 1902-ci ildə "İslam, Axund və Hatifülqeyb" əsərlərini və sırf islama aid çoxsaylı məqalələrini çap etdirməklə, islam dinini təhriflərdən və qərəzli münasibətlərdən qorumağa çalışmışdır. Bu əsərlərin, Avropa elmi-nəzəri fikrinin yanlış təmayüllərinə təsir göstərmək cəhdləri ilə yanaşı, xalqımızın mövhumat və xürafatdan qurtulub islamın əsil mahiyyətini əks etdirən inanclara yiyələnməsində də praktik əhəmiyyəti olmuşdur.

O, "Panislamizm, onun səciyyəsi və istiqamətləri", "İslamın mənşəyi və onun xristianlığa və yəhudiliyə münasibəti", "Ricəti-islam" kimi onlarla məqalələrində özündən əvvəlki Azərbaycan maarifçı ziyalılarının islamın müqəddəratı barədə açdıqları mübahisəni təzədən canlandırmışdır. Əksəriyyəti polemik üslubda yazılmış bu əsərlərdə o, Qərbin və Rusiyanın antiislam meyllərinə qarşı çıxır, Məhəmməd dini və şəriətini, islamın əsaslarını müdafiə edərək qətiyyətlə deyirdi ki, müsəlmanların dirçəlməsi və tərəqqisi onlar arasında "yeganə fəal qüvvə olan din vasitəsilə olmalıdır". Ağaoğluna görə

[*] Azerbaycan Devlet Medeniyet ve İncesenet Üniversitesi (ADMİU'nun dosenti, sənətşünaslıq namizədi)

"Asiya xalqlarına həyatı ilk dəfə xatırladan", onlara "göyləri yuxusundan oyadan", göylərlə bərabər yeri də göstərən islam dini olmuşdur. Yazılarında dönə-dönə islam tarixindən, onun ədəbi-mədəni keçmişindən bəhs edən Əhməd bəy panislamizmi "mütərəqqi hərəkat" kimi qiymətləndirirdi: "Panislamizm nəinki siyasi-dini, həm də mütərəqqi hərəkatdır" (21, s.314, 321). Müasirləri kimi o da islam dininə tərəqqiyə səbəb olan ictimai, mənəvi bir qüvvə kimi inanır və dini ehkamların müasirləşdirilməsi yolunda nəzəri və əməli səylərinin nəticələrini sosial-mədəni həyata tətbiq etməyə çalışırdı.

Fransadakı təhsil illərində Şərq və islam aləminə həsr edilmiş hər bir çıxış və dərsləri maraqla izləyən Ə.Ağaoğlu fransız mütəfəkkiri Ernest Renan və Ceyms Darmsteterin Şərq və islam dünyası haqqındakı qənaətlərinə etiraz etmiş və dövrünün elm zirvələrindən sayılan bu şəxslərə özünü iti zəkası və cəsarətlı xarakteri ilə təqdim etmişdir (17, s.22). Qərbin bu görkəmli şərqşünasları ağıl və cürətinə görə Ağaoğluna rəğbət göstərmiş və bu etimad səbəbindən o, elmi toplantılarda, mədəniyyət salonlarında iştirak şansı qazanmışdır.

Ömrü boyu müəllimlərinə, o cümlədən E.Renana rəğbətilə yanaşı, onun "İslam və din" əsərində Məhəmməd və təlimi haqqında yürütdüyü kəskin tənqidi mülahizələri etirazla qarşılamış, müəlliminin "müsəlman dini elm və mədəniyyətin inkişafı üçün maneə və səddir" hökmü onu xüsusilə çox qəzəbləndirmişdi. Dini "cəmiyyətin dayağı" hesab edən Ağaoğlu islamı Şərqdə elm və mədəniyyətin ən mühüm inkişaf amili sayırdı.

"Şiə dinində məzdəki inancları" əsəri 1892-ci ildə–şərqşünasların Londonda keçirilən beynəlxalq konqresində məruzə şəklində oxunmuş və Kembric Universitetinin xərci ilə bir neçə dildə çap olunmuşdur. Həmin məruzəsinə görə, konqres iştirakçıları arasında olan İran şahı Nəsrəddin Şah ona, sonralar "ailənin uğur üzüyü" adlandırdıqları firuzə qaşlı bir üzük hədiyyə etmişdir (3, s.138). Ağaoğlunun, xüsusilə o dövr üçün aktual səslənən bu məruzəsi beynəlxalq bir konqresdə bəlkə də ilk dəfə şərqli bir tələbənin İran tarixinə və şiəliyə orientalist baxışla yanaşmasında və həm də intellektual maraqlarını büruzə verməsi baxımından önəmlidir. Ağaoğlu bu çalışmasında şiəlik və İran cəmiyyətinə şərqşunaslığın problemləri çərçivəsində və mövzusunu kənardan şərh edən bir müşahidəçi kimi yanaşmışdır. Məqsədinin, o günədək islam din bilicilərinin diqqətini çəkməmiş olan şiəliyin ictimai mənbələri məsələsinə açıqlıq gətirmək olduğunu bildirməkdədir (4).

Məzhəb ayrılığının islama verdiyi zərərlərdən bəhs edən "İslam, Axund və Hatifülqeyb" risaləsində o, islamla bir şiə axundunu danışdırır. Fəqir və zəif islam, xüsusilə məzhəb ayrılığı üzündən başına gələn fəlakətləri, zəngin və şişman axundun qan daman kök üzünə hayqırır. Həyəcan və hərarətlə yazılan bu risalədən Ağaoğlunun dini və məzhəbi məsələlərdə geniş və dərin bilgisi ortaya çıxdığı kimi, XX əsrin əvvəllərinə doğru, xalqının inkişaf və tərəqqisinə, islamın xatalı, yanlış anlaşılmasını və xüsusilə bundan doğan məzhəb ayrılığını ən önəmli bir əngəl saydığı da bəlli olur.

"İslamda qadın və islam qadını" əsərində müəllif islamın tərəqqi dini olduğunu, Abbasilərin orta dövrlərinə qədər bu mütərəqqi hərəkat davam etdiyi halda, daha sonra alimlərin və şeyxlərin mənfəətpərəstlikləri üzündən islamın gerilədiyini və çökdüyünü iddia etməkdədir. Ağaoğlu müasir genderologiyanın əsas prinsiplərini ehtiva edən bu əsərdə "qadın"ı islamın tərəqqisi və geriləməsinin meyarı kimi verməkdədir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Ağaoğlu Azərbaycanın ən fəal islamşünas alimi və publisisti idi. Çap etdirdiyi elmi, publisist, ədəbi-tənqidi əsərlərin böyük bir qismində İbn Rüşd, Təbəri, Dante, Lüter, Konfutsi, Höte, Tolstoy, Nitsşe, Karleyl, Spenser kimi mütəfəkkir alimlərin zəngin irsindən istifadə yolu ilə islamın siyasi, ideoloji, etik, iqtisadi, hüquqi, fəlsəfi məsələlərinə toxunur, islam tarixinin ayrı-ayrı mərhələləri, epizodları, xilafətin Şərq və Qərbdə fəaliyyəti, peyğəmbərlər, imamlar və s. haqqında mühakimeler yürüdürdü. Bu əsərlərin ana xəttini təşkil edən əsas müddəa bundan ibarət idi ki,

nə Quran, nə şəriət yeniliyə əngəl deyildir, ancaq bunların təbliğatçıları öz şəxsi mənfəətləri xatirinə müsəlmanlığa mədəniyyətlə bir araya sığmayan mahiyyət verməyə çalışmışlar (5; 6; 16).

Ağaoğlunun bu mövzuda yazdığı əsərlərində, islam dininin üstünlüklərini, müasir dövrlə səsləşən xüsusiyyətlərini təsdiqlə yanaşı, xalqı, siyasət xadimlərini islam dininin qanun-qaydaları, tələbləri ilə hərəkət etməyə, azadlıq mübarizəsini islam ehkamları ilə əlaqələndirməyə çağırış da qüvvətli idi. Ə.Ağaoğlu Quranı sonrakı təhriflərən, qeyri-elmi şərhlərdən xilas etməyə çalışır, bu mövzuda, din xadimləri ilə ciddi mübahisələrə girirdi. İslama həsr olunan əsərlərinin mərkəzində belə ümumi ideya dayanırdı ki, islam öz mahiyyəti etibarilə başqa dinlərdən daha üstün keyfiyyətlərə malikdir, o, bütün tarix boyu müsəlman xalqlarının inkişafında müsbət rol oynayıb və indi də bu xalqların müasir tərəqqisini ondan kənarda təsəvvür etmək mümkün deyildir.

Ağaoğlunun Fransada dəbdə olan jurnallarda çap etdirdiyi məqalələrinin əsas məqsədi islama, müsəlman sivilizasiyasına qarşı yayılmış qərəzli mülahizələri aradan qaldırmaq olmuşdur. *"Nuvel Revyu"* qəzetində dərc etdirdiyi məqalələrinin birində Şərq həyatının Qərb sivilizasiyası ilə ayaqlaşması yollarını aramaq baxımından müsəlman cəmiyyətlərinin problemlərinin həllini bunda görürdü ki, "Nəsə başqa bir şey lazımdır, bu başqa şey isə, ülvi hissləri örnək göstərməyə qabil olan və onların maddi müdafiəsi üçün kifayət qədər mənəvi qüvvələri olan fərddir. Lakin müsəlman ailəsində qadının vəziyyəti fəallığı öldürür, bu isə onu hər cür təşəbbüskarlıqdan və hər cür enerjidən məhrum edir. Fərdin dirçəlməsi üçün lazımdır ki, bizim qadınlarımız dinimizin onlara verdiyi hüquqlara real malik olsunlar" (12, s.23).

Bu yazılarla başlayan fərdin hürriyyəti, tərəqqisi ideyasını Şərqlə Qərb arasındakı təzadın ən mühüm səbəblərindən biri hesab edən Ağaoğlu yaradıcılığının sonrakı bütün mərhələlərində də onu inkişaf etdirmişdir. Onun fikrincə qərbli üçün fəaliyyət, enerji və tərəqqi stimulu olan "rəqabət" Qərbin Şərq, o cümlədən müsəlman ölkələri üzərində əsas üstünlüyüdür.

İslamın geriliyi üçün məsuliyyətin bir hissəsinin, fərdin məhvinə səbəb olan qadının vəziyyəti ilə bağlı olması haqqında, ona qədər də mövcud olan fikirləri inkişaf etdirən Ağaoğlu bu amilə həlledici əhəmiyyət verir və hətta İran cəmiyyətində qadının vəziyyətinin tədqiqinə həsr edilmiş silsilə məqalələrlə çıxış edir. Bu məqalələrdə o, İran qadınının avamlığı, qadının ailədə layiqli yer tutmaması, ananın öz uşaqlarını tərbiyə etmək imkanının olmaması kimi məsələlərə toxunur.

Ağaoğlunun yazılarında tarixi əhəmiyyət daşıyan əsas məqamlardan biri onun müsəlman ölkələrində qadının passiv və acınacaqlı vəziyyətə düşməsini islamın mahiyyəti, xüsusilə də poliqamiya ilə bağlayan avropalıların yanlış və qərəzli mülahizələrinə qarşı tutarlı elmi dəlillərlə çıxış etməsidir. Bu mövzuda klassik ənənəyə söykənən Ağaoğluna görə Quran ərəb qadınının vəziyyətini xeyli yaxşılaşdırmışdır, bunu islamın ilkin–qızıl dövründə qadınların ictimai həyatda oynadığı mühüm rol da təsdiqləməkdədir. Poliqamiyaya gəldikdə isə onun praktik olaraq çox az yayılması bunu ciddi arqument kimi şişirtməyə əsas vermir. Sadəcə islamın mahiyyətində təsbit olunan hüquq və təminatlar müxtəlif amillərin, xüsusilə də bunda maraqlı olan qüvvələrin təsiri ilə sonradan unutdurulmuşdur.

Ağaoğlunun qənaətincə, təbiətinə görə Qərb cəmiyyətindən heç də fərqlənməyən islam cəmiyyəti tarixi səbəblərin təsiri altında dəyişmişdir və mahiyyətcə icma aspekti ilə xarakterizə olunmur ki, fərdiyyətçi Qərbə qarşı qoyulmuş olsun.

Islamın qızıl dövründə müasir demokratik dəyərlərin müşahidə edildiyini əsas gətirərək Ağaoğlu hesab edir ki, fərdin dirçəlişinə nail olmaq üçün müsəlmanlar "islamın ilkin ruhuna" nüfuz etməlidirlər. Fransua Jorjonun da təsdiqlədiyi kimi Ağaoğlu bu ideyasında Cəmaləddin Əfqaninin və Məhəmməd Abdonun tərəfindən xeyli əvvəl ortaya atılmış islamda islahatçılıq təşəbbüsləri ilə eyni mövqedən çıxış edirdi.

Qadın hüquqlarını da ehtiva edən "hüdudsuz mənəvi rəqabət"in hökm sürdüyü islamın qızıl dövründə "fərdin bütün qabiliyyətlərinin inkişafı", ən müxtəlif şəxsi keyfiyyətlərin çiçəklənməsi, hər cür tərəqqi üçün zəruri olan şərait olmuşdur. Ağaoğlu keçmişi idealizə edən bu tipli mülahizələrini islamın bugünkü halına bais olanlara qarşı qoyur. O, dünyanın gələcək rifahı naminə həm müsəlman, həm də Avropa dövlətləri qarşısında duran vəzifələrdən bəhs edir. Onun fikrincə Şərq və Qərb sivilizasiyaları arasında "əlaqə əməliyyatını" müsəlman ölkələrinin yalnız dövlət və hökumətləri həyata keçirə bilərlər. Çünki Avropa sivilizasiyasını zorla qəbul etdirmək kimi müstəmləkə siyasətinin həyata keçirilməsindənsə, cəmiyyətin modernləşməsi problemlərini özlərinin həll etmələri gərəkdir. Avropa dövlətlərinə gəldikdə isə, Ağaoğlu onların da bir vaxt irtica və müstəbidliyin şərəfini tutmaqdansa, Şərqin və müsəlman ölkələrinin modernləşmə səylərini dəstəkləmək lazım gəldiyini başa düşəcəklərinə ümid edir. Ona görə ki, Qərbin mənafelərinə uyğunluğu baxımından da bu daha məntiqidir.

Bir tərəfdən islahatçılıq mövqeyindən çıxış edən, digər tərəfdən isə islamı mümkün təhriflərdən mühafizə etməyə çalışan, xürafat güc gəlib, islam korlandıqca, elm və maarifin də müsəlmanların əlindən alınması fikrində olan Ağaoğlu Avropa oriyentalistlərinin panislamizm hərəkatı haqqındakı bəzi fikirləri ilə razılaşaraq "Kaspi"nin səhifələrində (21 aprel 1900-cu il, №87) yazırdı ki, "birləşmə mənasında keçmişə qayıtmağı təbliğ edən panislamizm, eyni zamanda müsəlmanlar arasında müasir həyatın köklü və biryolluq dəyişdirilməsində təkid edir... Bu, vaxtilə yalnız müsəlmanların malı olan iqtisadi, siyasi və mədəni fütuhatlar sahəsindəki təkiddir (...) bir sözlə, Avropa ağıl tərzi və yeni müsəlman meyli möcübincə islamçının ideyalarında panislamizm və yevropeizm anlayışı sinonim xarakteri kəsb etmişdir".

Problemin mübahisəli və ziddiyyətli məqamlarını qabardan tədqiqatçı-alim Qədim Mustafayev "XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi" əsərində "İttihadi islam" ideyasının təbliğatçılarının fikirlərinə belə bir tənqidi münasibət bildirirdi ki, panislamistlərə görə "yevropeizm" və "panislamizm" anlayışları müəyyən mənada: elm, sənaye, ticarət, hərbiçilik və sairənin tərəqqisi tələbini özündə ehtiva etmək baxımından sinonimdir. Lakin sözün əsil mənasında: əxlaq, "tərzi-hərəkət, mənəviyyat, insaniyyət" və s. əlamətlər baxımından bu anlayışlar sinonim ola bilməzlər. Deyildiyi kimi, "Avropa həyat tərzini", "onun əxlaqını", "mənəvi dayaqları"nı və s. tənqid edən panislamistlər "Avropa elm və mədəniyyətini" də olduğu kimi "aləmi-islam" içərisinə yaymağın əleyhinə idilər. Onlar yalnız "islama əsaslanan mədəniyyətin" tərəfdarı idilər (16, s.163).

Həqiqətən də panislamistlərə, o cümlədən müsəlman cəmiyyətlərinin düşdükləri böhrandan qurtulma çarələrini müqəddəs dinimizin ilkin mahiyyətində, islamiyyətin qızıl dövrünə qayıdışda arayıb-axtaran Ə.Ağaoğluna görə, tərəqqiyə, yüksəlişə rəvac verən, bütün zamanlar üçün yeni olan, müasirliyin bütün prinsiplərini öz bətnində gəzdirən islam dini, müasir dünya sivilizasiyasının bütün bəşəri və demokratik keyfiyyətlərini mənimsəmə və öz içində əritmə, həzm etmə qüdrətinə malikdir. Bu qənaətdə o, məsləkdaşı olduğu digər panislamistlərlə eyni mövqedən çıxış edirdi. Türkiyə illərində islami baxışlarını müəyyən qədər redaktə edən Ağaoğlu, ötən əsrin əvvəllərində Əli bəy Hüseynzadənin "Füyuzat" jurnalının 1907-ci il 7 avqust (№24) tarixli sayında əksini tapmış fikirlərinə həmrəy idi: "Avropalaşalım, firəngləşəlim deyürsünüz?! Lakin ey qare, müraciətdən müraciətə fərq vardır. Biz avropalıların ədəbiyyatına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiraatlarına müraciət etmək istəyüriz, özlərinə degil! Biz istəriz ki, islam ölkəsinə onların beyinləri, dimaqları girsün! Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsün, yoxsa mədələrində həzm olunmasın! Bu gün onların mədələrində həzm olunmamaq üçün bir çarə var isə, o da onların məhsulati-dimağiyyələrini alıb həzm etməkdən başqa bir şey degildir".

Onun əsərlərinin böyük bir qisminin ana xəttini təşkil edən əsas müddəa bundan ibarət idi ki, "nə Quran, nə şəriət yeniliyə əngəl deyildir, ancaq bunların təbliğatçıları öz şəxsi mənfəətləri xatirinə müsəlmanlığa mədəniyyətlə bir araya sığmayan mahiyyət verməyə çalışmışlar". Bu əsərlərdə islam dininin üstünlüklərini, müasir dövrlə səsləşən xüsusiyyətlərini təsdiqlə yanaşı, xalqı, siyasət xadimlərini islam dininin qanin-qaydaları, tələbləri ilə hərəkət etməyə, azadlıq mübarizəsini islam ehkamları ilə

əlaqələndirməyə çağırış da qüvvətli idi. İslama həsr olunan əsərlərinin mərkəzində belə ümumi ideya dayanırdı ki, islam öz mahiyyəti etibarilə başqa dinlərdən daha üçtün keyfiyyətlərə malikdir, o, bütün tarix boyu müsəlman xalqlarının inkişafında müsbət rol oynayıb və indi də bu xalqların müasir tərəqqisini ondan kənarda təsəvvür etmək mümkün deyildir.

Türkiyə dövründə, Ağaoğlunun dini baxışlarında islama əvvəlki münasibətilə müqayisədə tədricən dəyişikliklər müşahidə edilsə də o, həyatının sonuna qədər islamı bütün dinlərin fövqündə görmüş, islamın ilkin və doğuşdan var olan mahiyyətində elmi-tərəqqi meyllərinin, tolerantlığın, humanist, bəşəri və demokratik prinsiplərin durduğunu əsərlərində vurğulamışdır.

### Ədəbiyyat

1. Ağaoğlu Ahmet. İslamlıkda kadın (Türkceye çeviren: Hasan Ali Ediz). İstanbul: Nebioğlu Yayınevi, 1959, 56s. (Əsərin 1901-ci ildə Tiflisdə rus dilində çap edilmiş orijinal nüsxəsi şəxsi arxivimizdədir (Ахмед Агаев. Женщина по исламу и в исламе. Тифлис, 1901, 59 с.). Həmin kitabı bizə Ağaoğlunun nəvəsi Tektaş bəy bağışlamışdır).
2. Ağaoğlu Ahmet. Üç medeniyet. İstanbul: Milli Egitim Basımevi, 1972, 146s.
3. Ağaoğlu Sürəyya. Bir ömür belə keçdi (Vilayət Quliyevin "Ağaoğlular" kitabında, s.138-159). Bakı: Ozan, 1997, 236s.
4. Ağayev Əhməd. Şiə dinində məzdəki inancları (Fransızcadan çevirəni Hamlet Qoca). Əlyazması (Məqalə müəllifinin şəxsi arxivi ).
5. Ağayev Əhməd. Aləmi-islama bir nəzər. "İrşad" qəzeti, 17 noyabr 1907-ci il, № 116.
6. Ağayev Əhməd. Avropa və aləmi-islam. "Каспий" qəzeti, 25 sentyabr 1903, № 207.
7. Ağayev Əhməd. "Nədən bu günlərə qaldıq?". "İrşad" qəzeti, 22 iyun 1906-cı il, № 146.
8. Akçura Yusif. Türkçülüğün tarihi. İstanbul: Kaynak yayınları, 2001, 184 s.
9. Georgeon François. "Azerbaycanlı Bir Entelektüelin Ortaya Çıkışı: Ahmed Ağaoğlunun Fransa Yılları 1888-1894", *Toplumsal Tarih*, S. 8, Ağustos 1994, s.8-21.
10. Gülseven Fahrettin. Ahmet Ağaoğlunun hayatı, fikirleri, siyasi ve sosyal mücadeleleri. "Azərbaycan" dergisi, Ankara, 1989, sayı: 268, s.72-109.
11. İslam ansiklopedisi, cilt 1, Ağaoğlu Ahmet makalesi. İstanbul: Türkiye Diyanet Vakfı, 1988, s.464-466.
12. Jorjon Fransua. Azərbaycanlı intellektualın ilk addımları: Əhməd Ağaoğlu Fransada (1888-1894). Mədəniyyət dünyası, VII buraxılış, Bakı: Azərbaycan Dövlət Mədəniyyət və Incəsənət Universiteti, 2003, s.16-27.
13. Qurbanov Şamil. Cəmaləddin Əfqani və türk dünyası. Baki: Azərnəşr, 1996, 220 s.
14. Mirəhmədov Əziz. Əhməd bəy Ağayev ("Fikrin karvanı" kitabında). Bakı: Yazıçı, 1984, s.80-95.
15. Mirəhmədov Əziz. Təqsirimi yumaq istəyirəm (müsahibə). Ədəbiyyat qəzeti, 21 fevral 1992-ci il, № 8 (2807); Kimə və nə vaxt verilməsi qeyd edilməyən eyni mövzulu digər bir müsahibənin 9 makina səhifəsindən ibarət fərqli variantı Əziz Mirəhmədovun şəxsi arxivindədir.
16. Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296s.
17. Özcan Ufuk. Ahmet Ağaoğlu ve rol değişikliği (Yüzyıl dönümünde batıcı bir aydın). İstanbul: Donkişot yayinlari, 2002, 280s.
18. Sakal Fahri. Ağaoğlu Ahmed Bey. Ankara: Türk Tarih Kurumu Basımevi, 1999, 248s.
19. Süleymanlı Mübariz. Əhməd Ağaoğlunun "Üç mədəniyyət" əsəri. Şərq fəlsəfəsi problemləri (Beynəlxalq elmi-nəzəri jurnal), Bakı: AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, № 1-2, 2004, s.57-66.
20. Swietochowski Tadeusz. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920 (Türkçesi: Nuray Mert). İstanbul: Bağlam yayınları, 1988, 295s.
21. Talıbzadə Kamal. Əhməd Ağaoğlu və onun "Rus ədəbiyyatının ümumi səciyyələri" əsəri. Seçilmiş əsərləri. Ikinci cild. Baki: Azərnəşr, 1994, s.305- 328.